

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 245 (23.887)

*31 dekabr 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvi adına Mədəniyyət və İstirahət Parkında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Bakının Xətai rayonunda 11,2 hektar ərazisi olan parkda paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının səmərəli istirahəti üçün hər cür şərait yaradılıb.

Mövcud park və xiyabanların yenidən qurulması və yenilərinin salınması Bakının müasir görünüşünə və ekoloji vəziyyətinə müsbət təsir edən əsas amillərdəndir. “Nizami Gəncəvi ili”nin sonunda dahi mütəfəkkirin adını daşıyan parkın yenidənqurmadan sonra istifadəyə verilməsi həm də rəmzi olaraq xüsusi məna kəsb edir.

Bir vaxtlar “Luna Park” adı ilə məşhur olan ərazi uzun illər baxımsız qalmışdı. Ətraf ərazilərdə yaşayan sakinlərin sevimli istirahət məkanı olan parkda əsaslı yenidənqurmaya zərurət yaranmışdı. Bu məsələ Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli Sərəncamı ilə həllini tapdı.

Qeyd edək ki, 1922-ci ildə salınmış parkın şəhərin estetik görünüşünə uyğunlaşdırılması məqsədilə onun ərazisində yerləşən bir və ikimərtəbəli inzibati binalarda əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, süni göl yaradılıb, amfiteatr və 1938-ci ildən mövcud olan yay kinoteatrı yenidən qurulub, iki fəvvarə kompleksi və müasirtipli işıqlandırma sistemi yaradılıb. Parkda müasir söhbətgahlar, müxtəlifölçülü oturacaqlar, idman qurğuları quraşdırılıb, uşaq əyləncə kompleksi yaradılıb. Yay kinoteatrının qarşısında çay daşlarından qədim tipli yeni qala divarı tikilib. Parkın ərazisində yaşıllaşdırma işləri görülüb, minlərlə ağac-kol və dekorativ bəzək bitkiləri əkilib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflərin təqdimatı olub



Dekabrın 30-da – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası təltiflərinin təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanlara çalışdıqları sahələrdə fərqləndiklərinə görə təşəkkür etmiş, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbriklərini çatdırmış və onlara fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

“Tərəqqi” medalı ilə təltif olunan Habil Babayev, Tutu Əhmədova, Sədaqət Quliyeva, Elnarə Məmmədova və “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adı ilə təltif olunmuş Zəhra Əliyeva minnətdarlıq edərək demişlər ki, muxtar respublikada hər bir sahənin inkişafına diqqət göstərilir. Təhsil sahəsinə də bu diqqət və qayğıdan böyük pay düşmüşdür. Müasir standartlar səviyyəsində qurulan məktəblər ən son texnoloji avadanlıqlarla təmin olunub. Təhsilə göstərilən qayğı, müəllim əməyinə verilən qiymət bizi daha səylə çalışmağa ruhlandırır. Bundan sonra da qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirəcək, gənc nəslin vətənpərvər ruhda yetişməsində əlimizdən gələni əsirgəməyəcəyik.

“Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adı ilə təltif olunan Aytən Quliyeva demişdir: “Çalışdığım Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin kollektivi yaradılan müasir tədris şəraitindən bəhrələnərək hər il uğurlu nəticələr göstərir. Ötən tədris ilində məktəbin məzunlarının 72 faizi orta və ali ixtisas məktəblərinə qəbul olunmuş, onlardan 12-si 500-700 arası nəticə göstərmişdir. Bu gün mənim üçün ikiqat sevincli gündür. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə övladımın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na salınmış və xüsusi aylıq təqaüdə layiq görülmüşdür. Bu gün isə mən “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülmüşəm. Buna görə ailəm və öz adımdan minnətdarlıq edir, bundan sonrakı fəaliyyətimizdə də uğurlarımızın sayını artıracağımıza söz veririk”.



Ali Məclisin Sədri təhsil işçilərinə təşəkkür edərək demişdir: Bu il muxtar respublikada təhsil sahəsində ən yüksək göstərici qazanılıb. Orta məktəbi bitirən məzunların 73 faizi ali və orta ixtisas təhsili məktəblərinə qəbul olub. Bütün bunlar müəllimlərin əməyi və səyi, şagirdlərin isə çalışqanlığı nəticəsində mümkün olmuşdur.

“Azərbaycan Respublikasının Əməkdar rəssamı” fəxri adı ilə təltif olunan Fikrət Babayev demişdir ki, muxtar respublikada rəssamlıq sənətinə xüsusi diqqət və qayğı göstərilir. Bu il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunmuşdur. Qədim tarixi abidə olan Şahtaxtı hamamında yaradılan xidmət sahəsində mən də işlə təmin olunmuşam. Orada gənclərə sənətin sirlərini aşılayıram. Bu ada layiq görülməyimə görə ölkə başçısına minnətdarlıq edirəm.

Təltif olunanlardan Səhər İmanova, Zakir Fətəliyev, Qəhrəman Tağıyev və digərləri də əməklərinə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2021-ci ildə fəaliyyəti haqqında illik MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirləri 2021-ci ildə də davam etdirmiş, bu sahədə fəaliyyətini daxil olan müraciətlərin araşdırılması, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, preventiv mexanizm funksiyasının icrası, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə hüquqi maarifləndirmə, dövlət orqanları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində həyata keçirmişdir.

2021-ci ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 99 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 27-si şikayətlər, 72-ni isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 2 şikayətə baxılmasından imtina edilmişdir. 25 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 4-ü təmin edilmişdir. 21 şikayətə baxılması zamanı isə hüquq pozuntusu aşkar edilməmişdir.

Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş

*Ardı 2-ci səhifədə*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

### QƏRARI

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi nəzərə alınsın.

2. İnsan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı məsələlər gündəlik nəzarətdə saxlansın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 dekabr 2021-ci il*

müddətlərdə baxılmış və daxil olan müraciətlər cavablandırılmışdır.

2021-ci ildə Müvəkkil insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb edən hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə və müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi, maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

2021-ci il ərzində Müvəkkil təsisatı tərəfindən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müxtəlif sosial qruplara ünvanlanmış 38 tədbir keçirilmişdir.

2021-ci ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə daim diqqət mərkəzində olmuş, fəaliyyətimizin əlaqələndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə insan hüquqlarına dair müvafiq tədbirlər keçirilmişdir.

Ötən ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə hər il cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların barəsində humanist cəza siyasətinə əsaslanan tədbirlərin davam etdirilməsi onların islah edilmə prosesinin sürətlənməsini, normal sosial faydalı həyata adaptasiya olunmasını və bu sosial qrupdan olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edir.

2021-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 5 nəfər məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 4 nəfər məhkumun isə cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir.

Bununla yanaşı, 8 Noyabr – Zəfər Günü ilə əlaqədar qəbul edilmiş Amnistiya aktı 65 şəxs barəsində tətbiq edilmişdir ki, onlardan 14-ü azadlıqdan məhrumetmə cəzasından, 2-si cinayət məsuliyyətindən azad edilənlər, 12-si azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsi 6 ay azaldılan məhkumlardır.

Ötən il ərzində məhkumların əməyə həvəsləndirilməsi və əməyə cəlb edilməklə islah edilməsi məqsədilə cəzaçəkmə müəssisəsinin yaradıcılıq və istehsalat sahəsində yeni peşələrə yiyələnməsi istiqamətində işlər davam etdirilərək 24 məhkum daş üzərində oyma kursu və heykəltəraşlıq kurslarına cəlb edilmişdir.

Muxtar respublikada əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində həssas əhali qruplarının, o cümlədən cəzaçəkməkdən azad edilmiş məhkumların da özünüməşğulluğunun təmin edilməsi diqqət mərkəzində saxlanılmış, 2021-ci il ərzində cəzaçəkməkdən azad edilmiş 11 nəfər məhkum özünüməşğulluq proqramına cəlb edilmişdir.

2021-ci ildə Müvəkkil preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 30 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 126 başçəkmə həyata keçirmiş, preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1318 nəfər iştirak etmişdir.

Bu və ya digər müəssisəyə başçəkmə zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmış, saxlanılan şəxslərlə görüşlər keçirilmiş, onlarla ümumi və fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmişdir.

Qeyd edilməlidir ki, preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin sosial, tibbi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi, həmçinin onların asudə vaxtının təşkil edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmışdır.

Ötən ildə informasiya və ictimaiyyətlə əlaqələrin təşkili, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi və fəaliyyətimizin əlaqələndirilməsi istiqamətində işlər davam etdirilərək kütləvi informasiya vasitələrində hüquqi maarifləndirmə işinin təşkilinə də xüsusi önəm verilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsinin informasiya yükü daha da artırılmış, Müvəkkil və təsisatın insan hüquqları sahəsində fəaliyyətinin işıqlandırılması ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği, informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının davamlı zənginləşdirilməsi və elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Ötən ildə Müvəkkil təsisatı ilə muxtar respublikanın kütləvi informasiya vasitələri arasında mövcud əlaqələr daha da genişləndirilmiş, təsisatın fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində 223, Müvəkkilin rəsmi internet səhifəsində 322, habelə muxtar respublikamızın müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği ilə bağlı 349, ümumilikdə isə 894 informasiya materialı verilmişdir.

Muxtar respublikamızın iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi dəstək layihələrinin, sosial müdafiə və məşğulluq məsələlərinə yönəlmiş qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, nəticə etibarı ilə, əhalinin rifah halının getdikcə yaxşılaşdırılmasına, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə öz töhfəsini verməkdədir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil təsisatı bu sahədə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini daha da artıracaqdır.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti dekabr ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 21 dekabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində bəzi məsələlərin tənzimlənməsi haqqında" Nazirlər Kabinetinin 2021-ci il 30 iyul tarixli 170 nömrəli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən 2022-ci ilin 1 fevral tarixindən etibarən dövlət orqanlarının əməkdaşlarının, mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq, elm və təhsil müəssisələrində çalışan, iş və xidmət sahələrində fəaliyyət göstərən müəssisələrin, ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı olan bütün işçilərin koronavirusa qarşı ən azı 2 doza peyvənd olunmaları və ya koronavirusdan sağalaraq immunitetə malik olmaları barədə təsdiqedici sənədi, yaxud koronavirusa qarşı peyvəndə əks-göstəriş müəyyən edən əks-göstəriş sertifikatının olması tələb edilir.

Bundan başqa, Nazirlər Kabinetinin 2021-ci il 21 dekabr tarixli digər Qərarı ilə "İri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 2019-cu il 1 aprel tarixli Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə iri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətləri 2022-ci ilin 30 dekabradək, iri sahibkarlıq subyektlərinin baş mühasibləri 2022-ci il 30 dekabradək, büdcə təşkilatları üzrə, mərkəzləşdirilmiş xərclərdən maliyyələşdirilən büdcə təşkilatlarının baş mühasibləri 2022-ci ilin 30 dekabradək və yerli xərclərdən maliyyələşdirilən büdcə təşkilatlarının baş mühasiblərinin sertifikat əldəetmə müddətləri 2023-cü ilin 30 dekabradək uzadılmışdır.

Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası" təsdiq edilmişdir. Adıçəkilən Qaydaya əsasən dizel yanacağı ilə çalışan avtomobil nəqliyyatı ilə dövlət tərəfindən tənzimlənən tariflərə uyğun müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara şamil edilir, minik avtomobilləri ilə sərnişindaşıma, beynəlxalq sərnişin daşımaları və qeyri-müntəzəm sərnişin daşımaları ilə məşğul olan daşıyıcılara isə şamil edilmir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti müəyyən edilmiş formaya uyğun daşıyıcılar tərəfindən təqdim olunmuş elektron məlumatlar əsasında müraciətlərə 20 gün ərzində baxır və ödəniləcək subsidiyanın məbləğini müəyyən edir.

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 23 və 27 dekabr tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilmişdir. Dəyişikliyə əsasən xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kərə yağı, süddən hazırlanmış digər yağlar və süd pastalarının idxalına tətbiq olunan rüsum güzəştinin qüvvədəolma müddəti 2023-cü ilin 31 dekabr tarixinədək uzadılmışdır. Digər dəyişikliyə əsasən xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə emala məruz qalmamış aşılanmış dəri və ya dəri krastı məhsullarına tətbiq olunan müddətli ixrac rüsumlarının dərəcəsinin 1000 kiloqram üçün müəyyən edilmiş 350 ABŞ dolları 150 ABŞ dollarına endirilməklə qüvvədəolma müddəti 2023-cü il 31 dekabr tarixinədək uzadılmışdır.

Eləcə də Nazirlər Kabinetinin 2021-ci il 28 dekabr tarixli Qərarı ilə "Naxçıvan Beynəlxalq Hava Limanında, xüsusilə mühüm şəxslərin (VİP) və rəsmi nümayəndə heyətləri salonun xidmətlərindən istifadə məsələləri haqqında" Nazirlər Kabinetinin 2021-ci il 12 noyabr tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə Naxçıvan Beynəlxalq Hava Limanında, xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonun xidmətlərindən istifadə hüququ olan Naxçıvan Muxtar Respublikasının vəzifəli şəxslərinin, həmçinin xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin siyahısına daxil olmayan sərnişinlərin VİP salonunda göstərilən xidmətlər üzrə xidməthaqqı müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 30 dekabr tarixli Qərarı ilə "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi"ndə dəyişiklik edilərək sel və subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları və kənd təsərrüfatı heyvanlarına münasibətdə kimyəvi maddələrin təsirindən zəhərlənmə nəticəsində ölüm hallarının aqrar sığorta üzrə təminat verilən risklərin tərkibinə daxil edilməsi nəzərdə tutulmuşdur.

Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Aqrar sığorta predmetinin Tərkibi"ndə dəyişiklik edilmişdir. Dəyişikliyə görə günəbaxan, soya, yonca, noxud, yaşıl noxud, alça, albalı, alma, armud, çəltik və digər bitkilər, həmçinin xırdabuynuzlu (11-ci günündən 5 yaşına qədər) və iribuynuzlu (südlük istiqaməti üzrə 11-ci günündən 7 yaşına qədər, ətlik istiqaməti üzrə 11-ci günündən 3 yaşına qədər) heyvanlar aqrar sığortanın predmetinin tərkibinə daxil edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 30 dekabr tarixli Qərarı ilə "Aqrar sığorta Qaydaları"nda dəyişiklik edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamın icrası ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində andiçmə mərasimi keçirilib.*

## Azərbaycan vətəndaşlığına qəbul edilmiş şəxslərin andiçmə mərasimi olub



Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev tədbir iştirakçılarını qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib və onlara xoş arzularını çatdırıb.

Vətəndaşlıq hüququnun əhəmiyyətindən, üstünlüklərindən bəhs edən xidmət rəisi bildirib ki, vətəndaşlıq faktı ilə şəxslərin vəzifələri müəyyənləşir. Vətəndaşlar onların üzərinə qoyulmuş vəzifələri icra edir, qanuni mənafelərini həyata keçirir, dövlət isə, öz növbəsində, vətəndaşların qanuni maraqlarını müdafiə edir.

Vurğulanıb ki, ölkəmizin artan sosial-iqtisadi və hərbi qüdrətinin nəticəsidir ki, zəngin mədəniyyətə, qədim tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikası da bu gün inkişafın məhz intibah dövrünü yaşayır. Bütün parametrlər üzrə əldə edilən davamlı və dayanıqlı inkişaf, insan hüquq və azadlıqlarına xüsusi diqqətlə, həssaslıqla yanaşma, həmçinin təhlükəsizlik və əmin-amanlıq sayəsində muxtar respublikamızda yaşamaq, işləmək və təhsil almaqla bərabər, ölkəmizin vətəndaşı olmaq istəyənlərin sayı da hər ötən il artmaqdadır. Həmçinin qeyd edilib ki, reallaşdırılan məqsədyönlü və uğurlu siyasət respublikanı tərk edib digər ölkələrə getmiş Azərbaycan vətəndaşlarının da geri qayıtmasına çox ciddi təsir edir.

Sonra Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 dekabr tarixli Sərəncamı ilə vətəndaşlığa qəbul olunan 7 nəfər təntənəli şəraitdə Azərbaycanın Dövlət Bayrağı önündə Konstitusiyaya əl basaraq Azərbaycanın dövlət dilində ölkəmizə sadiq olacaqları barədə and içiblər.

Ölkə vətəndaşlığına qəbul olunan şəxslər Azərbaycan Respublikasının vətəndaşı adını şərəflə daşıyacaqlarını və bu böyük etimada görə ölkə rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Sonra Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunma ilə bağlı müvafiq sənədlər təqdim edilib.

Tədbir Dövlət Himninin ifası ilə yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Naxçıvanda Aşıq Ələsgərin 200 illik yubileyi qeyd edilib

*Naxçıvan Dövlət Musiqili Dram Teatrında Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.*





Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov açıb. Bildirilib ki, doğma Vətənimizdə milli dəyərlərimizin, mədəniyyət və incəsənətimizin qorunmasına, zənginləşdirilməsinə həmişə diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ustad sənətkar Aşıq Ələsgərin sənəti və yaradıcılığı öyrənilmiş, 1997-ci ildə 175 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il 18 fevral tarixdə "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" və 2021-ci il 30 noyabr tarixdə Bakı şəhərində "Aşıq Ələsgərin abidəsinin ucaldılması haqqında" sərəncamlar imzalamışdır.

Emin Məmmədov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il 22 fevral tarixdə Aşıq Ələsgərin 200 illik yubileyinin muxtar respublikada qeyd olunması ilə əlaqədar Sərəncam imzalamış, "Tədbirlər Planı" təsdiq olunmuşdur. "Tədbirlər Planı"na əsasən 19 may tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Yazıçılar Birliyi və ali təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə "Aşıq Ələsgər – 200" mövzusunda elmi konfrans, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş interaktiv dərs keçilmiş və bu dərs muxtar respublikanın 200-dən çox məktəbində izlənilmişdir. Bundan əlavə, Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş yaradıcılıq müsabiqəsi keçirilmiş, muxtar respublikanın musiqi təhsili müəssisələrində Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ustad dərsləri tədris olunmuşdur. "Aşıq Ələsgər və Naxçıvan" mövzusunda elmi araşdırmalar aparılmış, 14 elmi məqalə, 7 qəzet məqaləsi nəşr olunmuş, 3 teleradio verilişi hazırlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalının bir nömrəsi Aşıq Ələsgərin 200 illik yubileyinə həsr edilmişdir. Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr edilmiş teleradio və qəzet materialları hazırlanmış, keçirilən tədbirlər mətbuatda işıqlandırılmışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov Aşıq Ələsgər yaradıcılığının sənətkarlıq xüsusiyyətlərindən, mövzu və janr rəngarəngliyindən, ədibin öz sənətkarlıq üslubu ilə bədii dilimizin zənginləşməsindəki rolundan, fərdi üslubunun yüksək keyfiyyət göstəricilərindən bəhs edib.

Naxçıvan Muxtar Respublikasının Aşıqlar Birliyinin sədri Tural Bağırov isə "Aşıq Ələsgər xalq yaradıcılığının görkəmli ustadı kimi" mövzusunda çıxış edərək qüdrətli söz ustadının bədii yaradıcılıq istiqamətlərindən və aşığın irsinə dövlət qayğısından söz açıb.

Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Xanəli Kərimli "Aşıq Ələsgər aşıq ədəbiyyatının yaradıcısı kimi" mövzusunda çıxışında Aşıq Ələsgər yaradıcılığında məhəbbət lirikasının sənətkarlıq xüsusiyyətləri, məhəbbət mövzulu şeirlərinin bədii-estetik janrından, insan gözəlliyinin tərənnümündən danışıb.

Sonda Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları və Aşıqlar Birliyinin əməkdaşları tərəfindən Aşıq Ələsgərin əsərləri əsasında ədəbi-bədii və musiqili kompozisiya təqdim edilib.

**"Şərq qapısı"**

---

*Tarix dəfələrlə sübut edib ki, milli həmrəylik və ideologiya bir xalqın müstəqilliyi üçün ən mühüm amildir. Çünki həmrəylik olmadan müstəqillikdən, müstəqillik olmadan dövlətçilikdən bəhs etmək mümkün deyil. Azərbaycan xalqı xoşbəxt xalqlardandır ki, onun müstəqillik arzularını gerçəkləşdirən və bu müstəqilliyi milli həmrəylik və ideologiya üzərində inşa edən ümummilli lider Heydər Əliyev kimi dühası olub. Ulu öndərin bu siyasi irsi 1991-ci il dekabrın 16-da onun rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul olunması ilə bir daha təsdiq edilib. Həmin qərara əsasən 1991-ci ilin 31 dekabr tarixi muxtar respublikada ilk dəfə olaraq həmrəylik bayramı kimi qeyd edilib. Dünyada yaşayan bütün azərbaycanlıların birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynayıb.*

*31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*

## Milli birliyimiz və həmrəyliyimiz sarsılmazdır

Ümummilli lider Heydər Əliyev həmin sessiyadakı çıxışında qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq demişdir: ***"Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim Türk diyarında irəli sürülmüşdür".***

Ötən əsrin son onilliyində atılmış bu addım növbəti illərdə dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır. Azərbaycanın yenidən bərpa olunmuş müstəqilliyinin ilk kövrək illərində dünya azərbaycanlılarının vahid ideologiya ətrafında təşkilatlanması və birləşməsi ulu öndərin müstəqil Azərbaycanın gələcək inkişafı üçün həyata keçirdiyi ən mühüm tədbirlərdən biridir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli həmrəyliyimizin yaradılmasını ulu öndərin adı ilə bağlı olduğunu bildirərək demişdir: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda Onun təşəbbüsü ilə 31 Dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir. Bu gün, 31 dekabr bizim milli bayramımızdır".***

Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü həm də buna görə çox əhəmiyyətlidir ki, həmin dövrdə muxtar respublikada görülən məqsədyönlü işlərdə milli birlik və həmrəylik ön sırada dayanırdı. İşğal təhlükəsi ilə üz-üzə qalmış, dünyadan, demək olar ki, təcrid olunmuş Naxçıvanın sabaha gedən yolu, məhz muxtar respublika sakinlərinin ümummilli liderimizin ətrafında sıx birləşməsi, milli həmrəylik nümayiş etdirməsi ilə mümkün olmuşdur. Təsadüfi deyil ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyasının əsas ideoloji xətti də milli birlik və həmrəylik, Azərbaycançılıq olmuşdur.

Dünya azərbaycanlılarının milli həmrəyliyi istiqamətində görülən işlər ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra daha da genişlənmiş, Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü işlər aparılmışdır. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi olmuş ümummilli liderimiz xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə diasporumuzun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır. Bu görüşlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün mənəvi dayaq və güvənc yeri olmuşdur.

Dünya azərbaycanlılarının təşkilatlanması və ümummilli ideyalar ətrafında birləşdirilməsi yolunda həyata keçirilən tədbirlərdən biri görkəmli dövlət xadiminin "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli Sərəncamına uyğun olaraq həmin ilin 9-10 noyabrında Bakıda təşkil edilən qurultay olmuşdur. Bu qurultay milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvəsi olmaqla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələrinin möhkəmləndirilməsi, eyni zamanda diaspor quruculuğunun təkmilləşdirilməsi işinə öz böyük töhfəsini vermişdir. Ümummilli lider həmin qurultayda çıxış edərək dünya azərbaycanlılarının həmrəyliyini vacib bir vəzifə kimi önə çəkmiş, bunun üçün zəruri olan istiqamətləri diqqətə çatdırmışdır. Qurultay müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması baxımından mühüm tədbir olmaqla yanaşı, soydaşlarımızın həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qalmışdır. Bu mühüm tədbirdən sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yaranmış, dünya azərbaycanlılarını birləşdirən təşkilatlar daha aktiv fəaliyyət göstərməyə başlamışlar. Görülən işlərin nəticəsidir ki, hazırda dünyanın müxtəlif yerlərinə səpələnmiş azərbaycanlılar yaşadıqları xarici ölkələrdə cəmiyyətin iqtisadi, ictimai-siyasi və mədəni həyatına daha çox inteqrasiya olunur, həmin ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında yaxından iştirak edirlər.

Bu gün ümummilli liderimiz Heydər Əliyevin milli birlik, həmrəylik və Azərbaycançılıq ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının bu sahədə gördüyü işlər dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Vətənə bağlılıqlarının artırılmasına mühüm töhfələr vermişdir. Eyni zamanda bu günədək keçirilən qurultaylar ölkədən kənarda yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələrində mühüm rol oynamışdır. Prezident cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinin yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan vermişdir. Ölkə başçısının 2008-ci il noyabrın 19-da imzaladığı Fərmanla isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmış, dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir. Bundan 3 il sonra – 2011-ci il iyulun 5-də Dünya Azərbaycanlılarının III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayları keçirilmişdir. Bu qurultaylarda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, sahibkarlar iştirak etmişlər. Qurultaylar düşmən təxribatlarının qarşısının alınması istiqamətində mühüm rol oynamış, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin təntənəsinə çevrilmişdir.

Bu gün xarici ölkələrdə yaşayan soydaşlarımızın ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranıb. İldən-ilə siyasi, iqtisadi, mədəni, diplomatik nüfuzu artan Azərbaycan artıq beynəlxalq aləmdə mühüm tərəfdaşlardan birinə çevrilib. Ölkə rəhbərliyi tərəfindən dünya azərbaycanlılarının toplaşdığı diaspor təşkilatları ilə daha yaxından iş aparılır. Bunun nəticəsində Azərbaycan haqqında məlumatlar daha obyektiv və sistemli şəkildə bütün dünyaya çatdırılır. Qürurverici haldır ki, milli birliyimiz və həmrəyliyimiz ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsində özünü bir daha göstərdi. Bu birliyin nəticəsində hər bir Azərbaycan vətəndaşı bir yumruqtək birləşərək 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad etdi. Dünya Azərbaycan xalqının birliyinə bir daha şahid oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur".***

Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycan bu gün bütün dünya azərbaycanlılarının güvənc yeridir. Tarixi Qələbədən keçən bir il müddətində dünya azərbaycanlıları milli mənlik şüuru əsasında sıx birləşməyin əhəmiyyətini indi daha dərindən dərk edirlər. Hər kəs anlayır ki, Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi olaraq davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır. Ölkə Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində dünya azərbaycanlılarına müraciətlərinin birində dediyi kimi: ***"Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram".***

**"Şərq qapısı"**

---

## Humanitar tibbi aksiyalar keçirilib

*Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatlarını uğurla davam etdirir, humanitar aksiyaların keçirilməsini diqqət mərkəzində saxlayırlar.*

Növbəti humanitar tibbi aksiya Şahbuz və Kəngərli rayonlarında olub. Şəhid və aztəminatlı ailələrdən olan uşaqların ödənişsiz sünnət əməliyyatları üçün əvvəlcədən hazırlıq işləri görülüb, onların siyahısı hazırlanaraq həmin rayonların mərkəzi xəstəxanalarına dəvət olunublar.

Şahbuz rayonunda keçirilən aksiyada xəstəxananın cərrahiyyə şöbəsinin 18 həkimi, pediatr, əməliyyat tibb heyəti, laboratoriya və yerli işçilərin iştirakı ilə 22 uşaq sünnət edilib. Əməliyyat və əməliyyatdan sonra ağırlaşma halları olmayıb. Palatalara yerləşdirilən uşaqlar bir neçə saatlıq həkim nəzarətindən sonra evlərinə göndərilib.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasında da aksiya mütəşəkkil keçirilib. Naxçıvan Muxtar Respublika Xəstəxanasının 18 nəfərlik əməliyyat heyəti 39 sünnət əməliyyatı aparıb ki, onlardan da 4-ü şəhid ailələrindəndir.

Valideynlər dövlətimiz tərəfindən reallaşdırılan tədbirlərdən razılıqlarını bildirib, müayinə və əməliyyatların təşkilinə görə minnətdarlıq ediblər.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə könüllü qanvermə aksiyası keçirilib. Aksiyanın keçirilməsində məqsəd irsi qan xəstəliklərindən, xüsusilə talassemiyadan əziyyət çəkən insanlara kömək və koronavirus pandemiyası zamanı ehtiyat qan bankının zənginləşdirilməsindən ibarətdir. Aksiyada Mərkəzi Seçki Komissiyasının və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dairə seçki komissiyalarının əməkdaşları, ümumilikdə, 20 nəfər iştirak edib, 10 litr qan toplanaraq Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qan bankına təhvil verilib.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da sosial siyasət uğurla həyata keçirilir, belə nəcib təşəbbüslər isə dövlət siyasətinə dəstək xarakteri daşıyır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbirlər keçirilmişdir

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyində 30 dekabr 2021-ci il tarixində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni – 2022-ci ilin gəlişi ilə əlaqədar tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, vətənimizin müstəqilliyi, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş bütün Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək dahi liderə və bütün şəhidlərimizə öz hörmət və ehtiramlarını bildiriblər.

Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov kollektivi hər iki bayram münasibətilə təbrik edərək bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü – Azərbaycan xalqının birlik, bərabərlik və bütövlük günüdür. Hər bir xalqın milli varlığını şərtləndirən əsas amillərdən biri onun etnik-siyasi mütəşəkkilliyi, milli həmrəyliyidir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bütün Azərbaycan xalqının ideoloji bütövlüyünü, milli birliyini təmin edən əsas amildir. Bu ideya bu gün yeni, müstəqil Azərbaycanımızda dövlət siyasətinin prinsipial istiqamətlərindən biri kimi dünyada yaşayan soydaşlarımızın birliyinin ideoloji-nəzəri əsaslarını təşkil edir. Vurğulanıb ki, dünya azərbaycanlılarının həmrəyliyi milli mənafelərimiz və dövlət maraqlarımız kontekstində tarixi zərurətdən doğan ehtiyacdır. Dünya azərbaycanlılarını vahid milli ideologiya və həmrəylik ideyaları ətrafında birləşdirən, Azərbaycan xalqının müstəqillik arzularını gerçəkləşdirən, onu əbədi və dönməz edən ümummilli liderimiz Heydər Əliyev dünənimiz, bu günümüz və gələcəyimiz üçün böyük siyasi irs qoyub.

Bildirilib ki, Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil dövlətimizə hər hansı təhlükənin, təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmləndirilməsi hər bir azərbaycanlının şərəfli vəzifəsi kimi bütün arzularımızın fövqündə dayanır. Azərbaycan dilinin, milli-əxlaqi dəyərlərimizin, millət kimi formalaşdığımız tarixi Vətənimizin şərəfini qorumaq, harada yaşamasından asılı olmayaraq, bütün soydaşlarımızın ən yüksək həyat amalına çevrilməlidir. Çünki müstəqil Azərbaycan dövləti xalqımızın əldə etdiyi ən böyük nailiyyətdir. Dünya azərbaycanlılarının həmrəyliyi, birliyi isə müstəqil Azərbaycanın işıqlı gələcəyinin qarantıdır.

Tədbir digər çıxışlarla davam edib.

**AZƏRTAC**

* * *



*AMEA Naxçıvan Bölməsində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilib.*

Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri giriş sözü ilə açaraq həmrəyliyimizin əsasını təşkil edən Azərbaycançılıq ideyasının vacibliyindən bəhs edib. Bildirib ki, bu ideya milli birliyimizin əsası olmaqla yanaşı, həm də dünya azərbaycanlılarının bir yumruq altında birləşməsində əvəzsiz rola malikdir. Xalqın birliyinə hesablanmış uzaqgörən addımların artıq öz gözlənilən bəhrəsini verdiyini söyləyən bölmə sədri Vətən müharibəsi zamanı millətin, ordunun bu mənəvi birlikdən güc aldığını vurğulayıb.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov tədbirdə "Həmrəyliyimiz milli birliyimizdir" mövzusunda məruzə edib. Diqqətə çatdırılıb ki, görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycançılıq idealogiyası bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident cənab İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə ölkəmizdə qazanılan uğurlar xaricdə yaşayan soydaşlarımızın müstəqil dövlətimizə daha da inamını artırıb, onların milli maraqlar ətrafında sıx birləşmələri üçün zəmin yaradıb.

AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli və filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova əlamətdar günlə bağlı çıxış ediblər.

Dünən AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün mövzu ilə bağlı interaktiv dərs keçib. İnteraktiv dərs muxtar respublikanın 200-ə yaxın ümumtəhsil məktəbinin şagirdləri tərəfindən dinlənilib.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov təhsilə göstərilən dövlət qayğısından danışaraq qeyd etmişdir ki, 2020-2021-ci tədris ili ərzində də təhsil müəssisələrinin tikintisi və ya yenidən qurulması davam etdirilmiş, məktəb binaları tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Muxtar respublikanın təhsil müəssisələrinin maddi-tədris bazaları gücləndirilmiş, sürətli internetə çıxışı olan müasir kompüterlər və elektron lövhələr quraşdırılmış, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunmuşdur.





Vurğulanmışdır ki, 2020-2021-ci tədris ili təhsildə innovasiyaların tətbiqi ilə yadda qalmışdır. Nazir yeni – 2022-ci ildə görüləcək işlərdən və qarşıda duran vəzifələrdən danışmış, iştirakçıları bayram münasibətilə təbrik etmiş, bütün təhsil işçilərinə uğurlar arzulamışdır.

Tədbir dərnək üzvlərinin hazırladıqları konsert proqramı ilə davam etdirilmiş, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirilmişdir.

Naxçıvan Dövlət Universitetində keçirilən bayram tədbirində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Universitetin rektoru, dosent Elbrus İsayev Həmrəylik Gününün yaranma tarixi barədə ətraflı məlumat verərək bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti nəticəsində bu siyasət uğurla daha da inkişaf etdirilməklə bütün sahələrdə davamlı tərəqqi təmin olunub. Dövlət başçımızın siyasi iradəsi ilə ölkəmizin Böyük Zəfər əldə etməsi isə bu birliyimizi daha da möhkəmləndirib. Rektor Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə kollektivə təbriklərini çatdırıb, qarşıdan gələn 2022-ci ilin həm xalqımız, həm də elm və təhsilimiz üçün uğurlu olacağına əminliyini ifadə edib.

Rejissoru və ssenari müəllifi Gülxarə Əhmədova olan bədii hissədə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Validə Hüseynovanın rəhbərliyi altında universitetin Orkestr alətləri kafedrası nəzdində yeni yaradılmış "Xarıbülbül" vokal qrupunun, "Dəf" nağaraçalanlar, "Nəqşicahan" ansambllarının, Zeliha Hüseynəliyevanın bədii rəhbər olduğu rəqs qrupunun, tələbələrdən ibarət vokal qızlar qrupunun ifaları tədbirə xoş ab-hava bəxş edib.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən bayram tədbirini giriş sözü ilə rektor Azad Novruzov açıb. Bildirilib ki, bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, ürəyi Vətəni ilə döyünən hər bir azərbaycanlının bayramıdır. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü və konkret addımları sayəsində dünya azərbaycanlılarının həmrəyliyinin təmini məsələsi öz həllini tapıb. Müasir mərhələdə dahi şəxsiyyətin azərbaycanlıların həmrəyliyinə verdiyi dəyər, bütövlükdə, Azərbaycançılıq ideologiyasının təməlidir. Azərbaycançılıq başqa məsələlərlə yanaşı, həmrəylik konsepsiyasının da əsas ideya mənbəyidir.



Sonra Humanitar və ictimai fənlər kafedrasının müəllimi Aslan İbrahimov Azərbaycançılıq ideologiyasının həmrəylik konsepsiyasının yaradılması və formalaşdırılmasının əsas mənbəyi olması barədə məruzə edib.

Tələbələrin hazırladıqları bədii hissəyə baxdıqdan sonra, İncəsənət kafedrası əməkdaşlarının və Təsviri incəsənət ixtisası tələbələrinin əl işlərindən, rəsm əsərlərindən və kulinariyya nümunələrindən ibarət sərginin təqdimatı olub.

Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi münasibətilə briqada kollektivinə bayram sovqatları paylanılıb. Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin vəzifəsini icra edən Rəşad İsmayılov, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Yusif Həsənov qarşıdan gələn bayramlar münasibətilə kollektivi təbrik edərək bildiriblər ki, ölkəmizdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti prioritet istiqamətlərdən biri kimi, bu gün muxtar respublikamızda da uğurla icra edilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində bütün hərbi hissələr müasir texnika və avadanlıqlarla, lazımi qurğularla təchiz edilərək ordumuzun ixtiyarına verilmişdir.



Sonra 11 adda ərzaq məhsulları əsgərlərə təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı tərəfindən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan şəhərində yerləşən hərbi hissəyə bayram sovqatı aparılıb. Bununla əlaqədar əsgərlərlə görüş keçirilib. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının aparat rəhbəri Azər Cəfərov hərbçilərimizə bayram təbriklərini və arzularını ifadə edib.

Gətirilən bayram sovqatı – yerli istehsal olan müxtəlif növ ərzaq məhsulları hərbi hissəyə təhvil verilib.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Ordubad rayonunda yerləşən sərhəd zastavasında xidmət edən hərbçilərlə görüşüb, onlara bayram sovqatları təqdim ediblər. Nazir Nicat Babayev hərbi qulluqçuları bayramlar münasibətilə təbrik edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirəsində verilmiş tapşırığa uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslər tərəfindən 2500 cüt yun corab, 800 ədəd yun jilet və 1000 yun boyunluğun toxunaraq hərbi hissələrə təhvil verilməsi də bu birliyin növbəti bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filialı və Kəngərli rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin birgə iştirakı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi münasibətilə Kəngərli rayon ərazisində yerləşən "N" hərbi hissənin Vətən qarşısındakı müqəddəs xidməti borcunu yerinə yetirən zabit və əsgərləri ilə görüş keçirilmiş, onlara ərzaq məhsulları və gündəlik tələbat malları təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli və "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filialının müdiri Elçin Əliyev çıxış edərək hərbi qulluqçuları qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etmişlər. Gətirilən ərzaq məhsulları və gündəlik tələbat malları hərbçilərə təqdim olunmuşdur.

Hərbi hissələrə bayram sovqatları aparılması münasibətilə keçirilən tədbirlərdə hərbçilər göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**

## Növbəti buraxılış mərasimləri bayram əhvali-ruhiyyəsi ilə keçib

Naxçıvan Qarnizonu Qoşunlarında gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə sertifikatlar təqdim edilib, ixtisas hazırlığı kursları başa çatan gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar. Bu münasibətlə keçirilən buraxılış mərasimlərində əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.



Mərasimlərdə çıxış edənlər kurslar zamanı peşəkarlaşan gənclərimizi yeni hərbi vəzifələrə təyin olunmaları və eləcə də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək bundan sonrakı xidmətlərində uğurlar arzulayıblar.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldıqdan sonra oktyabr ayında həqiqi hərbi xidmətə çağırılan əsgərlərimiz tərəfindən müxtəlif hərbi ixtisaslar üzrə qazanılan bilik və bacarıqlar nümayiş etdirilib.

Gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub, tribuna önündən təntənəli keçidlə mərasimlər başa çatıb.

**Nəriman NƏCƏFOV**

### İtmişdir

Şərur rayonunun Maxta kənd sakini Məmmədov Həsən Mikayıl oğlunun adına verilmiş 102013003683 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Axundov Yasin Həmzə oğlunun adına olan 87B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

İsmayılov Samir Elman oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kərimov Mirkənan Mirismayıl oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1090